# 3 ildə 25 müxtəlif obrazın ifaçısı



**Ayşən Əsədova 3 ilə yaxındır ki, Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında aktrisa kimi çalışır. Bu qısa vaxtda səhnədə 25-ə yaxın rəngarəng obraz yaradıb. Hər bir obrazın daxili aləmini, arzu və düşüncələrini özünəməxsus cizgilərlə, təbii boyalarla tamaşaçılara çatdırmağa çalışıb.**

Ayşən Bakı şəhərindəki 116 nömrəli tam orta məktəbi bitirib. Hələ məktəb illərindən incəsənətə böyük marağı olub. Vokal səsi, şirin ləhcəsi ilə məktəb tədbirlərində gözəl mahnılar oxuyub. Orta məktəbi bitirəndən sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) nəzdində fəaliyyət göstərən Pedaqoji kollecdə təhsil alıb.

Lakin aktrisa olmaq, böyük səhnələrdə oynamaq arzusu onu heç vaxt tərk etməyib. 2016-cı ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin teatr sənəti fakültəsinə qəbul olunub. Burada aktyor sənəti ixtisası üzrə təhsil alıb. Tələbəlik dövründə Akademik Dövlət Milli Teatrının səhnəsində “Sehrli sandıq” tamaşasında Sürməli qız rolunu məharətlə ifa edib.

Gənc aktrisa bizimlə söhbət zamanı taleyin onu Lənkəran teatrı ilə qovuşdurmasından, burada çalışan kollektivdən razılıq edərək dedi:

– Lənkəran Dövlət Dram Teatrını həyatımda ikinci universitet sayıram. Burada çox istedadlı və təcrübəli aktyorlar çalışırlar. Onlardan öyrənməli çox şey var. Mənə həm gənc, həm də qonaq olduğum üçün diqqət və qayğı göstərirlər. Sağ olsunlar!

Ayşən 2023-cü ilin yayında ölkə teatrları üzrə 100-dən artıq gənc aktyorun arasından müsabiqə yolu ilə seçilərək Laçın şəhərində keçirilən teatr layihəsində iştirak edib. Lənkəran teatrını təmsil edən aktrisa Laçında 20 gün ərzində müxtəlif rollarda qüvvəsini sınayıb. Onun tanınmış rejissor Nicat Kazımovun quruluşunda “Sevil” tamaşasındakı Dilbəri xüsusilə uğurlu alınıb.



Son illər aktrisa Lənkəran Dövlət Dram Teatrının səhnəsində bir çox yaddaqalan obrazlar yaradıb. Ə.Haqverdiyevin “Kimdir müqəssir” əsəri əsasında rejissor Abdulla Elşadlının hazırladığı “Müqəssir” tamaşasında Bahar obrazını böyük həvəslə canlandırıb. Bahar obrazı onun karyerasında ən uğurlu rollardan biridir.

Son vaxtlar lənkəranlı teatrsevərlər Ayşən Əsədovanın dahi bəstəkar Üzeyir Hacıbəylinin “Arşın mal alan” operettasında oynadığı Telli rolunu xüsusilə çox bəyəniblər. Teatr bilicilərinin rəyi belədir ki, aktrisa rejissorun verdiyi yumoristik mizanları dəqiq yerinə yetirməklə yanaşı, bu parlaq obraza qəlbinin arzu və istəklərini, hərarətini də qatıb. Bir sözlə, Ayşənin “Telli”sini bəyənməyən yoxdur.

Hazırda istedadlı gənc aktrisa Ayşən Əsədova tanınmış yazıçı-dramaturq Hüseynbala Mirələmovun “Gəlinlik paltarı” əsəri əsasında hazırlanan yeni tamaşada əsas rollardan olan Fənayə obrazı üzərində məşq edir. Teatrın yaradıcı kollektivi onun bu rolun da öhdəsindən bacarıqla gələcəyinə, tamaşaçılara yeni sənət sevincləri bəxş edəcəyinə əmindir.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

Xalq qəzeti .- 2025.- 5 dekabr (№ 257).- S.10.